# AZƏRBAYCAN MİLLİ KİTABXANASI TÜRK XALQLARININ MƏDƏNİYYƏTLƏRİNİN İNTEQRASİYASI SİSTEMİNDƏ (1994-2014)

HACIYEVA M.M.
M.F.Axundov adına Milli Kitabxananın Xarici əlaqələr üzrə direktor müavini
melek.h@anl.az

*Məqalədə Azərbaycan Milli Kitabxanasının beynəlxalq əməkdaşlıq sahəsində türk dövlətlərinin nəhəng kitabxanaları ilə mədəni əlaqələrindən və bu əlaqələrin inkişafına təkan verən qarşılıqlı əməkdaşlıq barədə müqavilələrə əsasən birgə fəaliyyətindən, beynəlxalq konfrans, seminar və treninqlərdə birgə iştirakından bəhs edilir.*

**Açar sözlər:** *TÜRKSOY, Azərbaycan Milli Kitabxanası, türkdilli dövlətlər, beynəlxalq əməkdaşlıq.*

Bəşər mədəniyyətinin yaradılmasında böyük rolu olan türkdilli xalqlar hər zaman bu mədəniyyətin zənginləşməsinə böyük töhfələr vermiş, daima insan həyatının bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri, elmi ixtiraları, qiymətli bədii əsərləri və müsiqisi ilə tarixin parlaq səhifələrini yaratmışlar.

1991-ci ildə SSRİ-nin dağılması zəminində türkdilli xalqların müstəqil dövlətləri yaranır. Artıq SSRİ-nin tərkibindən çıxıb müstəqil dövlət kimi fəaliyyətə başlayan bu xalqlar yenidən hər sahədə olduğu kimi ədəbi-bədii, mədəni sahələrdə də əlaqələrin gücləndirilməsi uğrunda çalışırlar. Müxtəlif birliklər və ya təşkilatlar yaradır və onun nəzdində fəaliyyət göstərirlər. Belə təşkilatlardan biri də Türk Mədəniyyəti və İncəsənətinin İnkişafı Üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) olmuşdur.

TÜRKSOY Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində razılaşmalar əldə edilmiş və 12 iyul 1993-cü ildə Qazaxıstan Respublikasının Almatı şəhərində yaradılmışdır. Sonralar TÜRKSOY haqqında müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikaları da qoşulmuşlar [10].

Təşkilat türkdilli ölkələrin mədəniyyət və incəsənət sahəsində regional əməkdaşlığını həyata keçirir. Onun əsas məramlarından biri türk dünyasının

görkəmli tarixi şəxslərinin, mütəfəkkir şair və yazıçılarının, habelə digər böyük şəxsiyyətlərinin bütün dünyaya tanıdılmasıdır. Bu məqsədlə təşkilat ümumtürk tarixinin mühüm hadisələrinin, türkdilli ölkələrin dil, ədəbiyyat, mədəniyyət və incəsənətinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli şəxsiyyətlərin ildönümlərinə həsr olunmuş yubileyləri, xatirə gecələrini və digər kütləvi tədbirləri təşkil edir. TÜRKSOY-un məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfransların, simpoziumların, diskussiyaların və s. keçirilməsi də mühüm yer tutur.

YUNESKO 1994-cü ili dahi Azərbaycan şairi və mütəfəkkirinin şərəfinə "Məhəmməd Füzuli" ili elan etmiş və ölməz sənətkarın anadan olmasının 500 illik yubileyini ümumdünya miqyasında geniş şəkildə və yüksək səviyyədə keçirməyi qərara almışdı. Respublikamızda dahi şairin və əbədi məhəbbət tərənnümçüsünun anadan olmasının 500 illik yubileyinə hazırlıq işlərinə isə həmin qərarın elan olunduğu vaxtdan xeyli əvvəl başlanılmışdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev "Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında" 16 mart 1994-cü il tarixli fərmanından sonra isə bu sahədə görülən işlər yenidən nəzərdən keçirilmiş və ulu şairin ölməz adına layiq yubileyin təşkili üçün lazım olan bütün tədbirlər müəyyən edilmişdi.

Elə həmin il dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubiley şənliklərinə məhz Türkiyədə başlanılması türkdilli ölkələrin bir araya gətirilməsi üçün gözəl şərait yaratdı. Bu, türk dünyası mədəniyyət və incəsənət xadimləri arasında ədəbi-mədəni əlaqələrin genişləndirilməsinə təkan verdi.

Daha sonra yubiley şənlikləri Bakıda 1996-cı ilin noyabr ayında TÜRKSOY beynəxalq təşkilatının VIII toplantısı ərəfəsində davam etmişdir. Belə ki, noyabrın 6-da günün I yarısında Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin İclas salonunda türk dünyası yazıçılarının III qurultayı, günün II yarısında isə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında TÜRKSOY beynəlxalq təşkilatının VIII toplantısı keçirilmişdir. Hər iki tədbirdə iştirak edən ulu öndər çox dərin və mənalı nitq söyləmişdir.

TÜRKSOY beynəxalq təşkilatının VIII toplantısında ümummilli liderimiz öz nitqində xüsusən TÜRKSOY təşkilatını artıq beynəlxalq aləmdə öz yeri olan bir təşkilat kimi dəyərləndirmişdir. Onun 3 illik fəaliyyətinə yüksək qiymət verən ulu öndər bu təşkilatın ötən dövrdə böyük yol keçdiyini, yaxşı nailiyyətlər əldə etdiyini və onun böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdirdiyini qeyd etmişdir [11, s.13-18].

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə Azərbaycan Milli Kitabxanası da öz töhfəsini vermişdir. Belə ki, Milli Kitabxana tərəfindən "Məhəmməd Füzuli əsərlərinin nəşri" adlı biblioqrafik göstərici (tərt. Fazil Məmmədov, elmi red. M.Müsəddiq) çap olunmuşdur.İki hissədən ibarət olan göstəricinin birinci hissəsində şairin əsərləri, seçilmiş əsərləri, ayrı-ayrı əsərləri, kitabları, musiqi bəslənmiş əsərləri, dövri mətbuat səhifələrində dərc olunmuş əsərləri, başqa xalqların dillərində nəşr olunmuş əsərləri bölmə və yarımbölmələrdə verilmişdir.

"Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında ədəbiyyat" adlanan II hissədə həyat və yaradıcılığı, ata yurdu və məzarı haqqında olan sənədlər əks olunur.

"Köməkçi göstəricilər" adlanan hissədə isə materiallar 4 bölmədə və 84 yarımbölmədə verilmişdir. Göstəricidə əhatə olunan materiallar dünyanın 24 ölkəsinin 187 nəşriyyat və redaksiyasında hazırlanaraq 63 mətbəəsində çap olunmuşdur. Bura 21 müxtəlif xalqların dilində 650 müəllifin 2100-ə yaxın mənbəsi daxil edilmişdir [7].

Göründüyü kimi, geniş faktoqrafik məlumatlara malik göstərici Məhəmməd Füzuli yaradıcılığının tədqiqatçıları üçün böyük əhəmiyyətə malikdir.

Sonrakı illərdə də TÜRKSOY təşkilatının belə mükəmməl fəaliyyəti türkdilli ölkələrin mədəniyyət sahəsində ayrı-ayrı təşkilatların, müstəqil qurumlarının yaranmasına səbəb olmuşdur. Kitabxana sahəsində belə bir təşkilatın yaranması məqsədilə 4-8 iyun 2007-ci il tarixində Türkiyə Respublikasının Ankara şəhərində Türk Cümhuriyyətləri Milli Kitabxana direktorlarının iştirakı ilə konfrans keçirilmişdir. Konfransın əsas məqsədi türkdilli ölkələrin milli kitabxanalarının fəaliyyətini əlaqələndirən və onlar arasında qarşılıqlı işbirliyi qurulmasını təmin edən və türkdilli xalqların ortaq mədəniyyətinin, ədəbiyyatının, əlyazmalarının tədqiqi üzrə layihələrin işlənməsini təmin edən bir qurumun yaradılmasından ibarət idi. Belə bir qurumun yaradılması qərarı hələ 2006-cı ilin dekabrında Türksoyun toplantısı zamanı Azərçaycanın Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevlə və Türkiyə Cümhuriyyətinin Mədəniyyət və Turizm naziri cənab Atilla Koç tərəfindən irəli sürülmüşdür. Tədbirə Azərbaycan, Başqırdıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Tatarıstan və Türkmənistan dövlətləri dəvətlər almışdır. Azərbaycan tərəfi Milli Kitabxananın Məsləhət Şurasının sədri Xalq yazıçısı Ç.Abdullayev və direktor K.Tahirov təmsil edirdilər. Səfər çərçivəsində Qırğızıstan Milli Kitabxanası və Ə.Firdovsi adına Tacikistan Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında birgə əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır.

Türkdilli ölkələrin Milli Kitabxana direktorlarının II konfransı Bakıda 2008-ci il noyabrın 18-də Milli Kitabxananın 85 illik yubiley tədbirləri çərçivəsində keçirilmişdir. Həmin günlər yubiley tədbirləri çərçivəsində Avrasiya Kitabxanalar Assambleyası əməkdaşlıq təşkilatının ümumi iclasının keçirilməsi də nəzərdə tutulmuşdur.

Türkdilli ölkələrin Milli Kitabxana direktorlarının II konfransında Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Tatarıstan, Xakasiya və Başqırdıstan Milli Kitabxana rəhbərləri, rəsmi nümayəndələr iştirak edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının hər iki tədbirin iştirakçılarına - Türkdilli ölkələrin milli kitabxana direktorlarının Konfransının və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına müraciəti olmuşdur. Müraciətdə möhtərəm Prezident qeyd etmişdir: "Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir. Ümidvaram ki, konfransınızda müzakirəyə çıxarılan məsələlər və qəbul edilən qərarlar milli kitabxanaların xalqlarımızın mədəni sərvətlərinin yaşadılması və intellektual potensialının artırılmasında faydalı olacaqdır."

Daha sonra prezident müstəqil Azərbaycan dövlətinin dünya mədəni məkanına inteqrasiyasında türkdilli dövlətlərlə əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini göstərmişdir [5].

Konfransda türkdilli ölkələrin vahid elektron kitabxana və elektron kataloqunun yaradılması məsələsi müzakirə olunmuş, hər bir ölkənin milli kitabxanasında türkdilli ölkələrin xüsusi guşəsinin yaradılması məsələsi qərara alınmışdır. Konfransda iştirak edən bütün milli kitabxanalardan yaradılacaq guşələr üçün yeni ədəbiyyatın göndərilməsinə dəstək olmaları xahiş olunmuşdur.

Növbəti görüş 2009-cu il sentyabrın 8-də Qırğızıstanın Bişkek şəhərində Türkdilli ölkələrin milli kitabxanaları direktorlarının III yığıncağında olmuşdur.

Yığıncaq Qırğızıstan Milli Kitabxanasının 75 illik yubiley tədbirləri çərçivəsində keçirilmişdir. Yıgıncaqda ötən dövr ərzində görülən işlərdən söhbət açılmış, keçən konfransda qərara alınmış bir məsələ haqqında - Xakasiya Dövlət Kitabxanasında türkdilli ölkələrin guşələrinin yaradılması haqqında məlumat verilmiş və imkan daxilində hər bir milli kitabxanadan oraya ədəbiyyat göndərilməsi qərara alınmışdır. Konfransda 2015-ci ilə kimi türkdilli ölkələrin milli kitabxanalarının əməkdaşlığının əsas istiqamətləri təyin edilmiş, bu ölkələrin toplu kataloqunun yaradılması və türkdilli ölkələrin elm, tarix, mədəniyyət və dili haqqında məqalələrin mübadiləsinin təşkili məsələləri müzakirə olunmuş və qərarlar qəbul edilmişdir.Bu konfrans Türkdilli ölkələrin milli kitabxanalarının direktorlarını bir araya yığmaqla kitabxanalar arasında əlaqələri bir daha genişləndirmiş və əməkdaşlığı gücləndirmişdir.

Türkdilli ölkələrin Milli Kitabxana Direktorlarının Şurası 2010-ci ildən başlayaraq Türksoy təşkilatının türk dünyasının görkəmli tarixi şəxslərini,





mütəfəkkir şair və yazıçılarını, habelə digər böyük şəxsiyyətlərini bütün dünyaya tanıtdırmaq məqsədilə elan etdiyi və təşkil etdiyi yubileylərə, xatirə gecələrinə və digər kütləvi tədbirlərə qoşularaq beynəlxalq elmi konfranslar, dəyirmi masalar, kitab təqdimatları keçirir. Belə tədbirlərin keçirilməsinin fəal təşkilatçılarından biri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası olmuşdur.

2010-cu ilin TÜRKSOY təşkilatı tərəfindən görkəmli başqırd türkoloqu, şərqşünas alim Əhməd Zəki Validi ili elan olunduğundan Azərbaycan Milli Kitabxanasında Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir. M.F.Axundov adına Milli Kitabxana, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY, AMEA-nın Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən bu konfransda Türkdilli ölkələrin nümayəndələri, milli kitabxana rəhbərləri, elm, təhsil nümayəndələri iştirak etmişdir. Konfransda müasir türk tarixşünaslığının banilərindən biri sayılan Əhməd Zəki Validi Toğanın həyat və elmi fəaliyyəti haqqında edilən geniş məruzə və çıxışların onun yaradıcılığının türk aləmində bir daha işıqlandırılmasında və təbliğində böyük rolu oldu. Ardıcıl olaraq 2010-cu ilin noyabr ayında Əhməd Zəki Validi Toğanın 120 illiyinə həsr olunmuş konfrans Krım Muxtar Respublikasının Simferopol şəhərində keçirilmişdir. Konfrans İ.Qasprinski adına Krım-Tatar Kitabxanasının yaradılmasının 20 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində keçirilmişdir. Bu konfransda da Azərbaycan Milli Kitabxanası öz maraqlı çıxışları və təklifləri ilə fəal iştirak etmişdir.

2010-cu ilin dekabr ayında isə Azərbaycan Milli Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyi və TÜRKSOY təşkilatının birgə lahiyəsi olan "TÜRKSOY kitabxanası" seriyasından çap olunmuş «Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri» adlı kitabın təqdimat mərasimi keçirilmişdir.

Kitabda böyük türkmən şairi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Məhtimqulu Fəraqinin seçilmiş əsərləri toplanmışdır. Kitab 31 mart - 4 aprel 2009-cu ildə İstanbulda TÜRKSOY təşkilatı tərəfindən təşkil olunan "Türk ləhcələri arasında uyğunlaşdırma çalışmalarının bugünkü durumu və qarşılaşan problemlər" mövzusunda beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilmişdir.

Misilsiz söz ustası, sufi-ozan olmaqla yanaşı, eyni zamanda müdrik filosof, ünlü mütəfəkkir, böyük alim, bacarıqlı müəllim, ağıllı məsləhətçi, istedadlı dastançı, məşhur folklorçu, nəhayət, uzaqgörən siyasətçi, bir sözlə, türkmənlərin ruhi dünyasının rəhbəri olan Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycanda da həmişə sevilmiş və böyük maraq hissi ilə oxunmuşdur.Yerli mətbu orqanlarında onun şeirləri çap olunmuş, yaradıcılığı tədris edilmiş və yaradıcılığı tədqiq olunaraq, haqqında dissertasiya işi də yazılmışdır. Təqdimatı keçirilən, Ankarada nəfis tərtibatla çap olunmuş Məhtimqulu

Fəraqinin "Seçilmiş əsərləri" adlı kitabında (tərt. ed. Ramiz Əsgər; red. Əli Şamil) şairin şeirlərinin təxminən yarısı toplanmışdır. Türk dünyasına kiçik bir töhfə olan bu kitab Məhtimqulu Fəraqiyə, türkmən ədəbiyyatına və bütövlükdə qardaş türkmən xalqına, onun qədim köklü və zəngin mədəniyyətinə olan məhəbbətdən irəli gələrək çap edilmişdir [8].

Çox çəkmədən 2011-ci ilin mart ayında Azərbaycan Milli Kitabxanasında yenə də türkmən xalqının böyük şairi və mütəfəkkiri Nurməhəmməd Əndəlibin Azərbaycan dilində nəşr edilən "Şeirlər, poemalar, dastanlar" kitabının təqdimatı keçirilmişdir.TədbirdəTürkdilli ölkələrin nümayəndələri, milli kitabxanaların rəhbərləri, elm və təhsil nümayəndələri iştirak edirdi. Ədibin 350 illiyi ərəfəsində TÜRKSOY təşkilatı tərəfindən nəşr olunmuş və qardaş Azərbaycan və Türkmənistan xalqlarının ikitərəfli əlaqələrinin inkişafına böyük töhfə olan bu kitab Ramiz Əsgər tərəfindən tərcümə edilmişdir [13].

Azərbaycan Milli Kitabxanasında keçirilən «TÜRKSOY kitabxanası» seriyasından istər böyük türkmən şairi Məhtimqulu Fəraqinin "Seçilmiş əsərlər"inin, istərsə də məşhur türkmən şairi Nurməhəmməd Əndəlibin 350 illiyi münasibətilə yeni nəşr olunmuş əsərlərinin təqdimat mərasimləri iki xalq arasında ədəbi, mədəni əlaqələrin daha da inkişafı üçün səmərəli şərait yaratmışdır.

Bu tədbirlərin davamı olaraq iki ölkə arasında əlaqələr daha da genişlənərək, Milli Kitabxanaya Türkmənistan səfirliyi tərəfindən 40-dan artıq qardaş ölkənin mədəniyyətinə, incəsənətinə, tarixinə, coğrafiyasına və digər sahələrə həsr olunmuş kitablar hədiyyə olunmuşdur. Sözsüz ki, Azərbaycan oxucuları üçün Türkmənistanı tanımaqda, qonşu və dost ölkənin mədəniyyətini, adət və ənənəsini, müasir dövrdə inkişafı ilə tanış olmaqda mühüm vasitə olacaq bu kitabların iki xalqın bir-birinə daha da yaxınlaşmasında rolu danılmazdır [4].

2011-ci il türkdilli ölkələr üçün TÜRKSOY təşkilatı tərəfindən Tatarıstanın görkəmli şairi "Abdulla Tuqay ili" elan olunması ilə yadda qalmışdır. Bu məqsədlə Türkdilli ölkələrdə silsilə tədbirlər keçirilməyə başlanır. Həmin tədbirlərdən biri də Bakıda Azərbaycan Milli Kitabxanasında həyata keçirilir. Belə ki, TÜRKSOY təşkilatı, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən birgə əməkdaşlıq şəraitində Abdulla Tuqayın 125 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda Tatarıstanın görkəmli şairi Abdulla Tuqayın həyat və yaradıcılığı haqqında maraqlı məruzə və çıxışlar dinlənilmiş, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə çapdan çıxmış "Abdulla Tuqay. Seçilmiş əsərləri" adlı kitab təqdim olunmuşdur [2].





"TÜRKSOY kitabxanası" seriyasından çap olunan bu kitab tatarcadan tərcümə və tərtib edəni Ramiz Əskərin "Böyük tatar şairi Abdulla Tuqay" adlı ön sözü ilə başlanır [1]. Ardınca Abdulla Tuqayın "Yadımda qalanlar" başlığı altında öz həyat hekayətindən qeydləri verilmişdir. Sonra isə seçilmiş şeirləri tatarca orijinalları ilə birlikdə verilmişdir. Kitab 31 mart - 4 aprel 2009-cu ildə İstanbulda TÜRKSOY tərəfindən təşkil olunan "Türk ləhcələri arasında uyğunlaşdırma çalışmalarının bugünkü durumu və qarşılaşan problemlər" mövzusunda beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilmişdir. Təqdimat mərasimində TÜRKSOY-a üzv ölkələrin təmsilçiləri, elm və mədəniyyət nümayəndələri, milli kitabxana rəhbərləri və rəsmi nümayəndələr iştirak etmişlər. Abdulla Tuqay irsi ilə bağlı müxtəlif məruzələrin dinlənildiyi konfransda şairin şeirlərindən nümunələr səsləndirilmişdir.

Milli Kitabxanada həmçinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY təşkilatı və Azərbaycan Milli Kitabxanası ilə birgə görkəmli kitabxanaşünas alim, professor Abuzər Xələfovun 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir.Azərbaycan Respublikasının TÜRKSOY təşkilatındakı nümayəndəsi Elçin Qafarlı və digər rəsmi qonaqlar professor Abuzər Xələfovun yaradıcılığından, kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində əvəzsiz xidmətlərindən, onun səmərəli elmi fəaliyyətinin həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmasından danışmış və buna yüksək qiymət vermişlər. Çıxış edənlər Azərbaycan kitabxanaçılıq elmini dünya arenasına çıxaran, onu layiqincə tərənnüm və təbliğ edən Abuzər Xələfovu türk dünyasının dünya şöhrətli alimi kimi qiymətləndirmişlər. Çıxışlardan sonra Milli Kitabxana tərəfindən hazırlanan və alimin bütün həyat və fəaliyyətini əks etdirən "A.Xələfov: Kitabxanaya bağlı ömür" adlı elektron məlumat bazası konfrans iştirakçılarına təqdim olunmuşdur [3].

2012-ci il dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 870 illik yubiley ili olması ilə yadda qalmışdır. Hələ 23 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Sərəmcamda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına Gəncə şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, mütəfəkkir şair Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirilməsi həvalə olunmuş, məhz bu yubileylə bağlı ölkədə və onun sərhədlərindən kənarda çoxlu sayda silsilə tədbirlər keçirilmişdir.

Belə tədbirlərdən biri də Milli Kitabxanada TÜRKSOY təşkilatı, Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı, Türkdilli ölkələrin milli kitabxanalarının nümayəndələrinin iştirakı ilə keçirilən Nizami Gəncəvinin anadan olmasının 870 illiyinə həsr edilmiş "Nizami irsinin təbliği" mövzusunda Beynəlxalq Elmi Konfrans olmuşdur. Konfransda "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında" geniş və ətraflı məruzə və çıxışlar dinlənilmiş, Milli Kitabxana tərəfindən hazırlanmış "Nizami Gəncəvi" fundamental ədəbiyyat göstəricisinin təqdimatı keçirilmişdir.

Biblioqrafik vəsaitin tərtibçiləri Mətanət İbrahimova və Gulbahar Misirova, ixtisas redaktoru və buraxılışa məsul fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru Mədinə Vəliyevadır. "Dahi Azərbaycan şairi və mütəfəkkiri" adlı ön sözün müəllifi AMEA-nın müxbir üzvü, professor Teymur Kərimlidir. Göstəricidə Nizami Gəncəvinin həyat və yaradıcılığının əsas tarixləri, aforizmləri, görkəmli şəxsiyyətlərin Nizami haqqında fikirləri, şairin kitabları və dövri mətbuatda çap olunmuş əsərləri, haqqında yazılan kitablar, monoqrafiyalar, avtoreferat və dissertasiyalar, məqalələr toplanmışdır. Materiallar vəsaitdə bölmələr daxilində xronoloji qaydada əlifba sırası ilə verilmişdir. Mütəxəssislər, tədqiqatçılar, kitabxanaçılar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulan biblioqrafik göstəricidə Azərbaycan, rus və xarici dillərdə dərc olunmuş ədəbiyyat öz əksini tapmışdır. Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda Nizami Gəncəvi əsərlərinin, haqqında yazmış müəlliflərin və şairin sözlərinə musiqi bəstələmiş bəstəkarların əlifba göstəricisindən ibarət köməkçi aparat tərtib edilmişdir [12].

Milli Kitabxana bu göstərici ilə yanaşı, həm də yaratdığı "Nizami Gəncəvi-870" adlı elektron məlumat bazasını təqdim etmişdir. Məlumat bazasında şairin həyat və yaradıcılıgı, əsərləri, haqqında olan materiallarla yanaşı, həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxslər Nizami Gəncəvi haqqında və digər materiallar toplanmışdır.

2012-ci il Azərbaycan milli dramaturgiyası üçün çox əlamətdar bir il olmuşdur. Belə ki, böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyi tamam olmuşdur.

Hələ 2010-cu il 13 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin kecirilməsi haqqında sərəncam vermişdir. Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla Mirzə Fətəli Axundzadənin





200 illik yubileyinə həsr olumuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi qeyd olunmuşdur.

Dahi mütəfəkkir M.F.Axundzadənin 200 illik yubileyi TÜRKSOY təşkilatının da diqqət mərkəzindən kənarda qalmamış, 2012-ci ili "M.F.Axundzadə ili" elan etmişdir. Yubiley tədbirləri çərçivəsində istər Azərbaycanda, istərsə də onun sərhədlərindən kənarda maraqlı tədbirlər keçirilmişdir. Milli Kitabxana keçirilən bu tədbirlərin fəal iştirakçısı və təşkilatçılarından biri olmuş, tərtib etdiyi Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından çap olunmuş "Mirzə Fətəli Axundzadə - 200" adlı biblioqrafik vəsaiti və elektron məlumat bazasını təqdim etmişdir [9].

2014-cu il 16 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam vermişdir. Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla Xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olumuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi qeyd olunmuşdur. Sözsüz ki, belə bir tarixi yubiley TÜRKSOY təşkilatının da diqqət mərkəzindən kənarda qalmamış, 2014-cü il noyabr ayının 25-də Ankarada Türkiyə Milli Kitabxanasında hər iki qardaş ölkənin milli kitabxanalarının təşkilatçılığı ilə XX əsr Azərbaycan ədəbiyyatının klassiki, görkəmli dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir. Tədbirdə ədibin zəngin həyat və fəaliyyətindən geniş danışılaraq, yaradıcılığının ayrı-ayrı istiqamətləri, əsərlərindəki mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhu qeyd edilmişdir. Eyni zamanda əbibin bütün yaradıcılığını özündə əks etdirən kitab və fotosərgi nümayiş olunmuşdur Sərgidə nümayiş olunan Azərbaycan Milli Kitabxanasının nəşr etdirdiyi "İlyas Əfəndiyev" adlı biblioqrafik göstərici konfrans iştirakçılarına hədiyyə olunmuşdur.

"Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırlanan bu biblioqrafik göstəriciyə 1938-2014-cü illərdə dərc olunmuş materiallar daxil edilmişdir. Vəsaitdə İlyas Əfəndiyevin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, əsərləri, həyat və yaradıcılığı haqqında məlumatlar toplanmışdır. Kitabın tərtibçisi Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyeva, redaktor və buraxılışa məsul professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirov, ön sözün müəllifi filologiya elmləri doktoru, professor Şirindil Alışanlıdır [6].

2014-cü ilin sonlarında yenə də TÜRKSOY təşkilatı, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə qırğız şairi, ozan və bəstəkarı Toktakul Satılqanovun 150 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans kecirilmişdir. Konfransda

TÜRKSOY tərəfindən türk dilinə tərcümə olunmuş "Toktokul Satılqanov. "Seçilmiş əsərlər"" və Türkiyə Əskişehir valiliyi tərəfindən 6 dildə (Azərbaycan, türk, özbək, qazax, qırğız, türkmən) nəşr edilmiş "Şeirə, nəğməyə çevrilən ömür" kitablarının təqdimat mərasimi olmuşdur.

Konfransda eyni zamanda TÜRKSOY təşkilatı tərəfindən keçirilən tədbirlərdən danışılmış və bu tədbirlərin əhəmiyyəti qeyd olunmuşdur. Sonra TÜRKSOY-un baş katibi Düsen Kaseinov və Qırğızıstan "Toktoqul ili" Dövlət Təşkilat Komitəsinin sədr müavini Osmanbek Artıkbayev tərəfindən Azərbaycan Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevə, Türk Şurasının baş katibinin müavini Adaxan Madumarova, Azərbaycan Yazıçılar Birliyinin sədri Anara, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin müsteşar yardımcısı Nihat Gülə, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirova, Türkiyənin Əskişəhir valisi Güngör Asim Tuna, Azərbaycan Atatürk Mərkəzinin direktoru Nizami Cəfərova və kitabın tərcüməçilərinə Toktakul medalları təqdim edilmişdir.

Bütün deyilənlərə yekun olaraq demək olar ki, yarandığının 20 illik bir müddətində TÜRKSOY təşkilatı və onun keçirdiyi tədbirlər türk xalqlarının mədəniyyətlərinin inteqrasiyasında son dərəcə böyük rol oynamışdır. Azərbaycan Milli Kitabxanası həmin tədbirlərin həm daimi iştirakçısı və həm də fəal təşkilatçısı olmuşdur. Məhz "TÜRKSOY-un 20 illiyi" yubiley medalının təqdimatı 2014-cü il yanvar ayının 10-da Azərbaycan Milli Kitabxanasında keçirilmişdir. Yubiley medalı təqdim olunanlar arasında kitabxananın direktoru Əməkdar mədəniyyət işçisi professor Kərim Tahirov da olmuşdur. O,Türk dünyası mədəni irsinin təbliği, türkdilli ölkələr arasında əməkdaşlığın gücləndirilməsi sahəsində həyata keçirdiyi layihələrdə mühüm xidmətlərinə görə bu medala layiq görülmüşdür. Azərbaycan Milli Kitabxanası daim TÜRKSOY bayrağı altında birləşən dövlətlərlə sıx əməkdaşlığa hazır olmuş və bunu bu gün də müvəffəqiyyətlə davam etdirir. Türk Cümhuriyyətləri Milli Kitabxana direktorlarının birliyi bu əməkdaşlığı daha da möhkəmləndirib genişləndirəcəkdir.

## ƏDƏBİYYAT

1. Abdulla Tukay. Seçilmiş əsərləri.Bakı: Nağıl evi, 2011, 268s.
2. Abdulla Tukayın 125 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib: [M.F.Axundov adına Milli Kitabxanada] //Mədəniyyət, 2011, 14 dekabr, s.3; Respublika, 2011, 15 dekabr, s.6.
3. Azərbaycan Milli Kitabxanasının 2011-cü il hesabatı, s.22
4. Gülər. Milli Kitabxanada Türkmənistan səfirliyinin hədiyyə etdiyi kitablar təqdim olundu //Mədəniyyət, 2011, 8 iyul, s.3
5. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 17 noyabr 2008-ci il //Azərbaycan, 2008, 18 noyabr, s.1





6. İlyas Əfəndiyev: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; Tərt. G.Səfərəliyeva; red. və burax. məsul K.Tahirov; ön söz müəl. Ş.Alışanlı. Bakı: [s. n.], 2014, 511,[1]s.
7. Məhəmməd Füzuli əsərlərinin nəşri: biblioqrafik göstərici /Azərb. Resp. Mədəniyyət Nazirliyi, M.F.Axundov ad. Azərb. Dövlət Kitabxanası; tərt. ed. və xüsusi red. F.Məmmədov; elmi red. M.Müsəddiq; ixtisas red. M.Vəliyeva, D.Sadıqova, T.Yefimova. Bakı: Maarif, 1996.
8. Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri /tərt. ed. Ramiz Əsgər; red. Əli Şamil. Bakı-Ankara, 2010, 448s.
9. Mirzə Fətəli Axundzadə-200: tövsiyə ədəbiyyat göstəricisi: [biblioqrafiya] /İxt. red., burax. məs. K.Tahirov; red. G.Səfərəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası. Bakı: Zərdabi LTD, 2012, 359s.
10. Muxtarov Kamil. Azərbaycan Respublikası və TÜRKSOY // [Elektron resurs]. URL: http://onerjurnali.narod.ru/0002.htm
11. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar /H.Ə.Əliyev; burax. məs. R.Mehdiyev Əliyev, Heydər Əlirza oğlu Azərbaycan Respublikasının Ümummilli Lideri 1923-2003. K.8. Noyabr, 1996, mart, 1997. Bakı: Azərnəşr, 1998, 488s.
12. Nizami Gəncəvi: biblioqrafiya: anadan olmasının 870 illiyinə həsr edilir /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. M.İbrahimova, G.Misirova; ixtisas red. və burax. məs. K.Tahirov; red. M.Vəliyeva. Bakı, 2012, 632,[2]s.
13. Türkmən şairi Nurməhəmməd Əndəlibin Azərbaycan dilində nəşr olunmuş kitabı təqdim edilib: [TÜRKSOY-un təşkilatçılığı ilə M.F.Axundov adına Milli Kitabxanada türkmən şairinin "Şeirlər, poemalar, dastanlar" kitabının təqdimatı keçirilib] //525-ci qəzet, 2011, 10 mart, s.7

## НАЦИОНАЛЬНАЯ БИБЛИОТЕКА АЗЕРБАЙДЖАНА В ИНТЕГРАЦИИ КУЛЬТУР ТЮРКСКИХ НАРОДОВ
## М.М.ГАДЖИЕВА

***РЕЗЮМЕ***

*В статье рассказывается о совместных культурных связях с библиотеками в области международного сотрудничества тюркских государств, придающих импульс развитию взаимного сотрудничества на основе контрактов о совместной деятельности, международных конференций, семинаров и участии в них.*

***Ключевые слова:*** *ТЮРКСОЙ, Национальная Библиотека Азербайджана, тюркоязычные государтава, международное сотрудничество*

## AZERBAIJAN NATIONAL LIBRARY IN THE INTEGRATION OF CULTURE OF THE TURKIC PEOPLES

HAJIYEVA M.M.

***SUMMARY***

*Articles in the field of international cooperation of the turkic states cultural ties and mutual cooperation agreement on joint activities, joint participation in international conferences, seminars and workshops about giving impetus to the development of these relations is based on huge library of the Azerbaijan National Library.*

**Key words:** *TURKSOY, Azerbaijan National Library, turkic states, international cooperation*